

Vətəndaş Cəmiyyəti üçün Praktik Təlimat

# İNSAN HÜQUQLARI İLƏ ƏLAQƏLİ FONDLAR, QRANTLAR VƏ TƏQAÜD PROQRAMLARI

UNITED NATIONS

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF THE HIGH COMMISSIONER

Bu nəşr Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının maliyyə dəstəyi hesabına tərcümə edilərək dərc olunmuşdur. Bu nəşrin müəllifi Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığıdır. Bu nəşrdə istifadə olunan məzmun və material heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.

AVROPA İTTİFAQI

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF THE HIGH COMMISSIONER

# Mündəricat

Giriş....................................................................................................3

Fondlar və qrantlar........................................................................................4

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının (BMT İHAK) Təqaüd proqramları..........................................................23

Bizimlə əlaqə..............................................................................................36

# Giriş

Vətəndaş Cəmiyyəti üçün Praktik Təlimat: Fondlar, Qrantlar və Təqaüd Proqramları sənədində Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı (BMT İHAK) tərəfindən və ya onun iştirakı ilə idarə olunan maliyyə mənbələri, qrantlar və təqaüd proqramları barədə qısa məlumat verilir. Təlimatın məqsədi öz ölkələrində və ümumilikdə dünya səviyyəsində insan hüquqlarının təşviqinə əlavə töhfə vermək məqsədilə qeyd edilən fond və proqramlara maraq göstərən potensial müraciətçilər üçün təlimatlar təqdim etməkdir.

Nəzərə almaq lazımdır ki, bəzi fondlar, qrantlar və təqaüd proqramları üzrə maliyyələşmə mövcud olmaya bilər.

# Fondlar və qrantlar

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı (BMT İHAK) və Birləşmiş Millətlər Təşkilatının (BMT) digər qurumları müəyyən sahələr üzrə vətəndaş cəmiyyəti iştirakçılarını dəstəkləmək məqsədilə fond və qrantlardan istifadə edir. Qeyri-hökumət təşkilatları (QHT), yerli təşkilatlar, icma qrupları və peşəkar birliklər kimi vətəndaş cəmiyyəti təşkilatları (VCT), ümumilikdə, fond və qrantlar üçün müraciət edə bilər. Bəzi hallarda fərdi şəxslər də maliyyələşmə üçün müraciət edə bilərlər.

BMT İHAK tərəfindən idarə edilən fond və qrantlar aşağıdakılardır:

1. Birləşmiş Millətlər Təşkilatının İşgəncə Qurbanları üçün Könüllü Fondu;

2. Birləşmiş Millətlər Təşkilatının Quldarlığın Müasir Formaları üzrə Xüsusi Könüllü Fondu;

3. Birləşmiş Millətlər Təşkilatının Yerli Əhali üzrə Könüllü Fondu;

4. Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Konvensiyasının Könüllü Protokolu üzrə Xüsusi Fond; və

5. İcmalara Birgə yardım layihəsi.

BMT İHAK həmçinin

6. Birləşmiş Millətlər Təşkilatının Demokratiya Fondunda xüsusi rola malikdir və onun rolu bu fəsildə əhatə olunur.

## 1. Birləşmiş Millətlər Təşkilatını İşgəncə Qurbanları üçün Könüllü Fondu

### *Bu nədir?*

Birləşmiş Millətlər Təşkilatının İşgəncə Qurbanları üçün Könüllü Fondu BMT İHAK səlahiyyətində olan humanitar fondlardan biridir.

Onun mandatı işgəncə qurbanlarına eləcə də onların ailələrinə birbaşa yardım göstərmək niyyətində olan VCT-lərə və digər müvafiq məqsədlə yaradılmış təsisatlara qrantlar ayırmaqdan ibarətdir. Göstəriləcək əsas humanitar yardım formaları sırasına tibbi, psixoloji, sosial, hüquqi və maliyyə dəstəyi daxildir.

Fond işgəncələr və işgəncə qurbanlarına yardım sahəsində ixtisaslaşmış beş nəfər mütəxəssisdən ibarət Qəyyumlar Şurasının məsləhəti əsasında Birləşmiş Millətlər Təşkilatının Baş Katibi tərəfindən idarə olunur. Şura siyasət məsələlərini müəyyən etmək məqsədilə hər ilin Fevral ayı və qrantların verilməsi üçün hər ilin Oktyabr ayı olmaqla ildə iki dəfə toplaşır. Sessiyalar zamanı Şura əvvəlki qrantların istifadəsinə dair hesabatları nəzərdən keçirir, yeni qrantlar ilə əlaqədar tövsiyələr qəbul edir, Fondun müntəzəm donorları, habelə digər institusional donorlar ilə görüş keçirir və işgəncə qurbanlarına yardımın göstərilməsi və Fondun fəaliyyəti ilə bağlı siyasət məsələlərini müzakirə edir.

Fond işgəncə qurbanlarına yardımın göstərilməsi sahəsində çalışan təşkilatlar, o cümlədən yerli VCT-lər üçün beynəlxalq donorlardan dayanıqlı maliyyə vəsatətləri əldə etmək baxımından əlverişli fürsət yaradır. Belə ki, qrantlar illik əsasda yenilənə bilər.

### *O necə işləyir?*

Fondun Katibliyi BMT İHAK-ın Cenevrə şəhərində olan ofisində yerləşir. Katiblik müraciətlərin layihə qrantları baxımından qəbul üçün uyğunluğunu müəyyən etdiyi halda,
Şura müraciətlərin aşağıdakı meyarlar əsasında məqsədəuyğunluğu barədə qərar verir:

- Layihə çərçivəsində yardım göstəriləcək işgəncə qurbanlarının və onların ailə üzvlərinin sayı;
- Məruz qalmış işgəncənin növü və onun təsirləri;
- Lazım olan və layihə çərçivəsində təmin olunacaq yardımın növü; və
- İşçilərin peşəkar təcrübəsi və işgəncə qurbanlarına yardım edilməsi sahəsində potensialı.

Fondun təqdim etdiyi qrantlar 12 aylıq müddəti əhatə edir (yanvar-dekabr).

İllik qrant qrafiki aşağıdakı kimidir:

- Növbəti il verilməsi nəzərdə tutulan qrant üçün 1 aprel tarixinə qədər müraciət olunmalıdır;
- Katiblik müraciətləri təhlil edir və ilkin yoxlamaların aparılması məqsədilə aprel-sentyabr ayları ərzində uyğun müraciətçilərə səfərlər təşkil edir;
- Şura alınmış müraciətləri nəzərdən keçirmək məqsədilə oktyabr ayında görüş keçirir və növbəti il üçün qrantlar ayırır;
- Müraciətçilər noyabr ayında Şuranın tövsiyələri barədə məlumatlandırılır;
- Qrantlar yanvar ayında ödənilir; və
- Qrantların istifadəsinə dair izahlı və maliyyə hesabatları, eləcə də lazım olduğu təqdirdə audit hesabatı növbəti ilin 1 aprel tarixinə qədər təqdim olunmalıdır.

Layihənin davam etdirilməsi üçün müraciətlər təqdim oluna bilər və Şura əvvəlki qrantın istifadəsi ilə bağlı qənaətbəxş izahlı və maliyyə hesabatları, eləcə də, tələb olunduğu təqdirdə audit hesabatı aldığı halda yeni qrant tövsiyə ediləcəkdir.

Şura hər il işgəncə qurbanlarına yardım ilə bağlı dəstək layihələrinin daha çox ehtiyac duyulduğu prioritet regionları müəyyən edir. Müstəsna hallarda, vəsaitlər mövcud olduğu təqdirdə, Şura tərəfindən müəyyən edilən və BMT-nin üzv ölkəsi, Şuranın üzvü və ya müvafiq təşkilat tərəfindən tövsiyə edilən regionlar üzrə layihələr üçün qrantların alınması məqsədilə ümumi qrant qrafikindən kənar birinci dəfə üçün müraciətlərin təqdim edilməsinə icazə verilə bilər. Müraciət forması sorğu əsasında Katiblikdən əldə oluna bilər.

## *Kimlər müraciət edə bilər?*

- Yaradılmış yardım kanalları: VCT-lər, ixtisaslaşmış reabilitasiya mərkəzləri, qurbanların assosiasiyaları, fondlar kimi qeyri-hökumət təşkilatları, habelə klinikalar və xəstəxanalar, hüquqşünaslar qrupu və bəzi şərtlər daxilində fərdi mütəxəssislər, məsələn insan hüquqları müdafiəçiləri.

- Hökumətlərdən, milli azadlıq hərəkatlarından və ya siyasi partiyalardan gələn müraciətlər qəbul olunmur.

## Müraciət ilə bağlı tələblər

- Layihənin birbaşa benefisiarları Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə və digər qəddar, qeyri-İnsani və alçaldıcı münasibətlər və ya cəzalara qarşı Konvensiyasının 1-ci bəndi ilə müəyyən edilən işgəncə qurbanları və ya zərərçəkmiş şəxs ilə yaxın qohumluq münasibətlərinə malik olduğu üçün işgəncənin təsirinə birbaşa məruz qalmış ailə üzvləri olmalıdır;

- Qrant üçün müraciətlər işgəncə qurbanlarına və onların ailə üzvlərinə tibbi, psixoloji, sosial, hüquqi və ya maliyyə yardımının göstərilməsi məqsədi daşımalıdır;

- Yardım işgəncə qurbanları və/və ya onların ailə üzvləri ilə münasibətdə işgəncənin nəticələri ilə əlaqəli olmalıdır;

- Layihəyə cəlb olunan işçilər işgəncə qurbanlarına birbaşa yardımın göstərilməsi sahəsində təcrübəyə malik olmalı və layihə qrant üçün müraciətin təqdim edildiyi tarixdə artıq həyata keçirilməlidir;

- İşgəncə qurbanlarının cəmiyyətə sosial və ya iqtisadi təkrar-inteqrasiyası, eləcə də zərərçəkmiş şəxslərin özləri üçün peşə təlimləri ilə bağlı layihələr üçün müraciətlər də qəbul olunur; və

- Vəsaitlərin mövcudluğundan asılı olaraq, qrantların məhdud bir hissəsi işgəncə qurbanlarına yardım göstərmək üçün mütəxəssislərin potensialının artırılması ilə əlaqədar təlimlərə, seminarlara və bu cür oxşar layihələrə sərf edilə bilər.

Nəzərə almaq lazımdır ki:

- İşgəncələrə qarşı, işgəncələrin qarşısının alınması istiqamətində kompaniyaların aparılması və digər layihələrə maliyyə yardımının göstərilməsi ilə bağlı layihələr üçün müraciətlər qəbul olunmur;

- Təhqiqatlar, araşdırmalar, tədqiqatlar və qəzetlərin nəşri və bu kimi digər oxşar fəaliyyətlər ilə bağlı layihələr üçün müraciətlər qəbul olunmur;

- Yeni QHT-nin və ya digər VCT-lərin yaradılmasının maliyyələşdirilməsi ilə bağlı layihələr üçün müraciətlər qəbul olunmur;

- Fond tərəfindən ilk dəfə olaraq dəstəklənən təşkilatlara ayrılan qrantların həcmi vəsaitlərin mövcudluğundan asılı olaraq 50.000 ABŞ dollarına qədər olur və müvafiq layihə digər maliyyə mənbəyinə də malik olmalıdır; və

- Fond zərərçəkmiş şəxslərə maliyyə kompensasiyası təqdim etmir.

www.ohchr.org/EN/Issues/Pages/TortureFundGuidelines.aspx

## *Necə müraciət etməli?*

- Növbəti ildə ayrılacaq qrant üçün müraciət 1 aprel tarixinə qədər təqdim olunmalıdır;

- Müraciətlər Fondun qrantların idarə edilməsi ilə bağlı BMT İHAK-ın internet saytında mövcud olan onlayn sistemi vasitəsilə təqdim olunmalıdır;

- Müstəsna hallarda, təşkilat katibliyin icazəsi ilə kağız formasını poçt və ya elektron poçt vasitəsilə təqdim edə bilər. Müraciət forması sorğu əsasında Katiblikdən əldə oluna bilər;

- Müraciətlər İngilis, Fransız və ya İspan dillərində təqdim olunmalıdır; və

- Sorğu əsasında Katiblikdən əldə oluna bilən Rus dilində olan müraciət formaları da təqdim edilə bilər.

Tam doldurulmayan, layihə lideri tərəfindən imzalanmayan və tarix qoyulmayan və ya bu və ya digər şəkildə Fondun tələblərinə cavab verməyən müraciətlər qəbul olunmayacaqdır.

Poçt vasitəsilə təqdim edilən müraciətlər "Birləşmiş Millətlər Təşkilatının İşgəncə qurbanları üçün könüllü Fondu" göstərilməklə Təlimatın Bizimlə əlaqə bölməsində qeyd edilən ünvana göndərilə bilər.

Əlavə məlumat və suallar üçün:

**Telefon: +41 (0) 22 917 96 24**
**Faks: +41 (0) 22 917 90 17**
**E-poçt: unvfvt@ohchr.org**

Müraciət etməkdə maraqlı olan təşkilatlar qeyd edilən bütün tələblərin və prosedurların təfərrüatı ilə, təqdim edildiyi Fondun Təlimatları ilə BMT İHAK-ın rəsmi internet saytında tanış ola bilərlər:

## Təşkilatlar üçün fövqəladə qrantlar

Fond tərəfindən maliyyələşdirilən layihələri icra edən təşkilatlar, istisna olaraq, Şuranın iki sessiyası arasında fövqəladə yardım üçün müraciət edə bilər. Bu cür fövqəladə qrantlar yalnız yardım göstəriləcək zərərçəkmiş şəxslərin sayında kəskin artım nəticəsində təşkilatın benefisiarlara yardım edə bilmədiyi və ya həddindən artıq az potensiala malik olduğu hallar ilə məhdudlaşır. Bu humanitar böhranın, təbii fəlakətin və ya digər fövqəladə halların nəticəsi ilə əlaqədar ola bilər. Müraciət forması sorğu əsasında Katiblikdən əldə oluna bilər.

## Fərdi işgəncə qurbanları üçün fövqəladə qrantlar

Müstəsna hallarda, ölkəsində Fond tərəfindən maliyyələşdirilən və ya digər müvafiq layihələr mövcud olmadığı halda işgəncə qurbanı təxirəsalınmaz yardım üçün müraciət edə bilər. Müvafiq şəxsin işgəncə nəticəsində zərər çəkdiyinə dəlalət edən tibbi arayış, eləcə də müvafiq şəxsin işgəncənin qurbanı olduğunu təsdiq edən digər sənədlər də (işgəncənin baş verdiyi mühit, işgəncənin müəyyən edilməsi, məruz qalınan işgəncənin növü, onun sonrakı nəticələri, tələb olunan yardımın növü, bu cür yardımın ilkin smeta dəyəri və s.) müraciətə əlavə olunmalıdır. Müraciət forması sorğu əsasında Katiblikdən əldə oluna bilər.

Fond barədə ətraflı məlumatı aşağıdakı saytda əldə etmək olar:

www.ohchr.org/EN/AboutUs/Pages/FundsAndGrants.aspx

## 2. Birləşmiş Millətlər Təşkilatının Quldarlığın müasir formaları üzrə xüsusi Fondu

### *Bu nədir?*

Birləşmiş Millətlər Təşkilatının Quldarlığın müasir formaları üzrə xüsusi Fondu BMT İHAK-ın səlahiyyətinə daxil olan humanitar fondlardan biridir. Fondun mandatı quldarlığın müasir formaları nəticəsində insan hüquqları kobud şəkildə pozulan fərdi şəxslərə birbaşa yardım göstərən, o cümlədən tibbi, psixoloji, maarifləndirmə, sosial və iqtisadi dəstək təmin edən VCT-lərə qrantlar verməkdir.

Quldarlığın müasir formaları sırasına aşağıdakılar daxildir: qul əməyi, borc təhkimçiliyi, insan alveri, quldarlıq, uşaq əməyi və köləlik, icbari əmək və / və ya məcburi evlilik. Quldarlıq və bu kimi əməllər çox zaman gizli baş verir və vətəndaş cəmiyyəti üzvləri zərərçəkmiş şəxslərə yardım göstərməklə quldarlığın müasir formaları ilə əlaqədar gizli insan hüquqları pozuntularını aşkar etməkdə mühüm rol oynaya bilərlər.

Fond quldarlığın müasir formaları sahəsində ixtisaslaşmış beş nəfər mütəxəssisdən ibarət Qəyyumlar Şurasının məsləhəti əsasında Birləşmiş Millətlər Təşkilatının Baş Katibi tərəfindən idarə olunur. Şura əvvəlki qrantların istifadəsinə dair hesabatları nəzərdən keçirmək, yeni qrantlar ayırmaq, quldarlığın müasir formalarının qurbanlarına yardımın göstərilməsi ilə əlaqədar siyasət məsələlərini müzakirə etmək, eləcə də Fondun müntəzəm donorları, habelə digər institutsional donorlar ilə görüşmək  məqsədilə ildə bir dəfə toplaşır.

Fond, çox zaman, yerli səviyyədə fəaliyyət göstərən VCT-lər və digər yardım kanalları üçün beynəlxalq maliyyə mənbələrinə çıxış baxımından əlverişli fürsət yaradır.

Fondun Katibliyi BMT İHAK-ın Cenevrə şəhərində olan ofisində yerləşir. Katiblik müraciətlərin layihə qrantları baxımından qəbul üçün uyğunluğunu müəyyən etdiyi halda, Şura müraciətlərin məqsədəuyğunluğu barədə qərar verir.

## *O necə işləyir?*

Fondun qrantları adətən 12 ay müddətində həyata keçiriləcək layihələri əhatə edir.

2013-cü il tarixinə olan illik qrant qrafiki aşağıdakı kimidir:

- Növbəti il verilməsi nəzərdə tutulan qrant üçün 1 aprel tarixinə qədər müraciət olunmalıdır;
- Katiblik müraciətləri təhlil edir və ilkin yoxlamaların aparılması məqsədilə aprel-oktyabr ayları ərzində uyğun müraciətçilərə səfərlər təşkil edir;
- Qəyyumlar Şurası alınmış müraciətləri nəzərdən keçirmək məqsədilə noyabr/dekabr ayında görüş keçirir və növbəti il üçün yeni qrantlar ayırır;
- Layihənin həyata keçirilməsinə dair izahlı və maliyyə hesabatları hər il 1 aprel tarixinə qədər təqdim olunmalıdır;

- Dünya üzrə quldarlığın müasir formaları barədə mümkün qədər daha geniş təsəvvürə malik olmaq məqsədilə hər bir qrant qrafiki çərçivəsində layihələr bütün coğrafi regionlar üzrə seçiləcəkdir

Layihənin davam etdirilməsi üçün yeni müraciətlər təqdim oluna bilər və Şura əvvəlki qrantın istifadəsi ilə bağlı qənaətbəxş izahlı və maliyyə hesabatları aldığı halda maksimum 5 il müddətinə yeni qrant tövsiyə edəcəkdir.

## *Kimlər müraciət edə bilər?*

- Yalnız qeyri-hökumət təşkilatları. O cümlədən VCT-lər, icma əsaslı təşkilatlar, həmkarlar ittifaqı və ya peşəkar assosiasiyalar müraciət edə bilər; və

- Hökumətlərdən, parlamentlərdən və ya digər inzibati idarəetmə orqanlarından, siyasi partiyalardan və ya milli azadlıq hərəkatlarından müraciətlər qəbul olunmur.

## Müraciət ilə bağlı tələblər

- Qrant üçün müraciətlər quldarlığın müasir formalarının qurbanlarına birbaşa yardım göstərmək, o cümlədən yaşayış yeri təminatı, hüquqi yardım, psixoloji-sosial dəstək, qida, tibbi yardım, təlim və dayanıqlı gəlir mənbəyinin yaradılmasına yardım göstərmək məqsədini daşımalıdır;
- Layihənin birbaşa benefisiarları quldarlığın müasir formalarının qurbanları olmalıdır;
- Təşkilatlar Fonddan bir dəfə üçün maksimum 15.000 ABŞ dolları həcmində vəsait tələb edə bilər və layihələr tam olaraq fonddan asılı olmamalıdır;
- Müraciəti təqdim edən təşkilatlar komponentlərdən biri kimi potensialın artırılması məsələsini müraciətə daxil edə bilər ki, bura ya da insan hüquqları və layihənin idarə edilməsi ilə əlaqədar təlimlər daxil ola bilər;
- Vəsaitlərin mövcudluğundan asılı olaraq quldarlığın müasir formaları ilə bağlı təlimlərin, seminarların və ya konfransların təşkili üzrə layihələr üçün müraciətlər də qəbul oluna bilər; və
- Qrantların ayrılmasında quldarlığın müasir formaları ilə əlaqəli layihələr üzrə ən azı iki illik fəaliyyətə və iş təcrübəsinə malik təşkilatlara üstünlük veriləcəkdir.

---

[1] Beynəlxalq hüquq çərçivəsində quldarlığın müasir formaları ilə əlaqədar əlavə məlumatları BMT İHAK-ın nəşrindən əldə etmək mümkündür: Quldarlığın və onun müasir formalarının aradan qaldırılması

(HR/PUB/02/4). Qeyd dilən nəşri publications@ohchr.org və http://www.ohchr.org/EN/PublicationsResources/Pages/SpecialIssuesthree.aspx vasitəsilə əldə etmək olar.

Nəzərə almaq lazımdır ki:

- Quldarlığın müasir formalarına qarşı mübarizə istiqamətində kompaniyaların aparılması ilə bağlı layihələr üçün müraciətlər qəbul olunmur;
- Təhqiqatlar, araşdırmalar, tədqiqatlar və qəzetlərin nəşri və bu kimi digər oxşar fəaliyyətlər ilə bağlı layihələr üçün müraciətlər qəbul olunmur; və
- Fond zərərçəkmiş şəxslərə maliyyə kompensasiyası təqdim etmir.

## *Necə müraciət etməli?*

- Növbəti ildə ayrılacaq qrant üçün müraciət 1 aprel tarixinə qədər təqdim olunmalıdır;
- Müraciətlər Fondun qrantların idarə edilməsi ilə bağlı BMT İHAK-ın internet saytında mövcud olan onlayn sistemi vasitəsilə təqdim olunmalıdır;
- Müstəsna hallarda, təşkilat katibliyin icazəsi il kağız formasını poçt və ya elektron poçt vasitəsilə təqdim edə bilər. Müraciət forması sorğu əsasında Katiblikdən əldə oluna bilər; və
- Müraciətlər İngilis, Fransız və ya İspan dillərində təqdim olunmalıdır.

Tam doldurulmayan, layihə lideri tərəfindən imzalanmayan və tarix qoyulmayan və ya bu və ya digər şəkildə Fondun tələblərinə cavab verməyən müraciətlər qəbul olunmayacaqdır.

Poçt vasitəsilə təqdim edilən müraciətlər “Birləşmiş Millətlər Təşkilatının Quldarlığın müasir formaları üzrə xüsusi Fondu” göstərilməklə təlimatın Bizimlə əlaqə bölməsində qeyd edilən ünvana göndərilə bilər.

Ətraflı məlumat və suallar üçün:

Telefone: +41 (0) 22 917 93 76
Faks: +41 (0) 22 917 90 17
E-poçt: slaveryfund@ohchr.org

www.ohchr.org/EN/Issues/Slavery/Pages/SlaveryFundMain.aspx

www.ohchr.org/EN/AboutUs/Pages/FundsAndGrants.aspx

## 3. Birləşmiş Millətlər Təşkilatının Yerli əhali üçün könüllü Fondu

### *Bu nədir?*

BMT-nin Yerli əhali üçün könüllü Fondu 1985-ci ildə təsis edilmişdir. Fondun ilkin məqsədi yerli icmaların və təşkilatların nümayəndələrinə insan hüquqları ilə bağlı mexanizmlərin hazırlanması prosesində iştirakda yardım etmək və beynəlxalq səviyyədə aborigen məsələləri ilə bağlı baş verən mühüm inkişaflara töhfə verməkdən ibarət olmuşdur. Fond yerli icmaların və təşkilatların nümayəndələrinin BMT-nin aşağıdakı qurum və orqanlarının sessiyalarında iştirakına yardım edir:

- Aborigen məsələləri üzrə forum (PFII, 2001-ci ildən etibarən);
- Yerli əhalinin hüquqlarına dair ekspert mexanizmi (EMRIP, 2008-ci ildən etibarən); və
- İnsan Hüquqları Şurası (o cümlədən, onun Universal Dövri İcmalı) və insan hüquqları razılaşmasına üzv qurumlar (2010-cu ildən etibarən).

Hökumətlərin, QHT-lərin və digər qurumların (özəl və ya ictimai) könüllü ianələri hesabına maliyyələşən BMT-nin  Yerli əhali üçün könüllü Fondu BMT-nin yuxarıda qeyd edilən qurumlarında iştirak etmək niyyətində olan yerli icma nümayəndələrinə qrant vəsaitləri ayırır.  Bu qrantlar gediş və gəliş üçün təyyarə biletlərindən və sessiya zamanı lazım olan ümdə ehtiyacların ödənilməsi üçün gündəlik təqaüddən ibarətdir.

### *O necə işləyir?*

Fond Qəyyumlar Şurasının məsləhəti əsasında BMT-nin Baş Katibi tərəfindən idarə olunur. Şuranın tövsiyələri Baş Katib adından Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı tərəfindən təsdiq edilir.  Şura aborigen məsələləri sahəsində müvafiq təcrübəyə malik və Birləşmiş Millətlər Təşkilatının ekspertləri qismində fəaliyyət göstərən beş nəfər mütəxəssisdən ibarətdir. Şuranın üzvləri Baş Katib tərəfindən təkrar seçilmək imkanı ilə üç il müddətinə təyin olunur.

Qəyyumlar Şurasının illik toplantısı bir qayda olaraq hər ilin fevral ayında Cenevrə şəhərində keçirilir. Fond fəaliyyətini genişləndirərək benefisiarların İnsan Hüquqları Şurasının və İnsan Hüquqları Müqaviləsi Qurumlarının sessiyasında iştirakını dəstəklədiyi üçün Qəyyumlar Şurası qrantların ayrılması üzrə qərarların verilməsi məqsədilə virtual aralıq sessiyalar sistemi yaratmışdır.

## *Kimlər müraciət edə bilər?*

Yalnız yerli əhali icmalarının və təşkilatların aşağıdakı meyarlara cavab verən nümayəndələri Fondun yardımının benefisiarları ola bilərlər:

i) Qəyyumlar Şurası tərəfindən məqsədəuyğun hesab edilən şəxslər;

ii) Şuranın rəyinə əsasən Fond tərəfindən təmin edilən yardım olmadan tədbirlərdə iştirak edə bilməyən şəxslər; və

iii) Yerli əhalinin məruz qaldığı problemlər barədə müvafiq qurum və orqanları daha dərin biliklərlə məlumatlandırmaqda töhfə verə bilən və daha geniş coğrafi təmsilçiliyi təmin edən şəxslər.

Qəyyumlar Şurasının tövsiyəsi əsasında Baş Katib yerli əhalinin İnsan Hüquqları Şurasının, Universal Dövri İcmalın və İnsan Hüquqları Razılaşmasına üzv qurumların sessiyalarında iştirakı ilə əlaqədar xüsusi uyğunluq meyarları təsdiq edir. Sözügedən sessiyalarda iştirak etmək niyyətində olan yerli əhali nümayəndələri qeyd edilən meyarlar barədə mütləq məlumatlı olmalıdırlar:

www.ohchr.org/EN/Issues/IPeoples/IPeoplesFund/Pages/criteria.aspx

## *Necə müraciət etməli?*

- aidiyyəti sessiyadan asılı olaraq dörd müxtəlif müraciət forması və fərqli son müddətlər vardır;
- Hər bir qrant üçün müraciət formaları və son müddətlər barədə məlumat aşağıdakı saytdan əldə oluna bilər:

www.ohchr.org/EN/Issues/IPeoples/IPeoplesFund/Pages/ApplicationsForms.aspx

- Müraciət forması İngilis, Fransız və ya İspan dilində doldurulmalıdır;

- Müraciətçinin yerli təşkilatının və ya yerli icmasının səlahiyyətli şəxsi tərəfindən imzalanan namizədlik və ya tövsiyə məktubu mütləq şəkildə əlavə olunmalıdır; və

- Hər bir təşkilat tərəfindən gender balansı nəzərə alınmaqla maksimum iki nəfər namizəd irəli sürülə bilər.

Titul səhifəsində “Birləşmiş Millətlər Təşkilatının yerli əhali üçün könüllü Fondu” yazısı göstərilməklə aşağıdakı ünvanlara müraciət göndərmək olar:

- Faks: **+41 (0) 22 917 90 08**; və ya

- Təlimatın Bizimlə əlaqə bölməsində göstərilən ünvana.

Əlavə məlumat və suallar üçün: **indigenousfund@ohchr.org**.

Fond barədə ətraflı məlumat almaq üçün:

www.ohchr.org/EN/Issues/IPeoples/IPeoplesFund/Pages/IPeoplesFundIndex.aspx

## 4. Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə qarşı Konvensiyasının Könüllü Protokolunun xüsusi fondu

### *Bu nədir?*

BMT-nin İşgəncələrə qarşı Konvensiyasının Könüllü Protokolunun (OPCAT) 26-cı bəndinə əsasən üzv ölkəyə (konvensiyaya üzv olan ölkə) səfər etdikdən sonra İşgəncələrin qarşısının alınması üzrə Alt-Komitə (SPT) tərəfindən verilən tövsiyələrin,

eləcə də milli profilaktik mexanizmlər (MPM) ilə bağlı maarifləndirmə proqramlarının həyata keçirilməsini dəstəkləmək məqsədilə 2011-ci ildə Xüsusi Fond təsis edilmişdir.OPCAT Xüsusi Fondu işgəncələrin qarşısının alınması istiqamətində müvafiq tədbirlər həyata keçirməkdə ölkələrə və MPM-lərə yardım edir. Müvafiq səfərdən sonra SPT tərəfindən təqdim edilən tövsiyələrin həyata keçirilməsində ölkələrə və MPM-lərə dəstək təklif etməklə işgəncələrin qarşısının alınması sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti nümayəndələri də fondan faydalana bilər. Fond maraqlı tərəflər arasında tərəfdaşlıq münasibətlərini təşviq edir və dövlət ilə vətəndaş cəmiyyəti üzvləri arasında qarşılıqlı fəaliyyəti təbliğ edir.

## *Necə müraciət etməli?*

Fond BMT İHAK tərəfindən idarə olunur. Müraciət üçün təlimatlar hər bir qrant qrafiki üçün müəyyən edilir və BMT İHAK-ın internet saytında yerləşdirilir. Hər il SPT hansı müraciətlərin nəzərdən keçirilməsi ilə bağlı prioritet mövzular müəyyən edir.

Müraciətlər BMT İHAK və onun Qrant Komitəsi tərəfindən qiymətləndirilir və maliyyələşdirmə baxımından nəzərdən keçirilir. Qiymətləndirmələr tamamlandıqdan sonra müraciətçilər müraciətlərin statusu barədə məlumatlandırılır. Seçilmiş müraciətçilərə BMT İHAK ilə imzalanacaq müqavilə təklif olunur (Qrant Razılaşması). Ayrılan qrantların yekun sayı seçilmiş layihə təkliflərinin büdcəsinin həcmindən, eləcə də Fondun maliyyə resurslarından asılıdır. Seçilmiş bütün layihələrin siyahısı Fondun internet saytında yerləşdirilir. Uyğun layihə təklifləri maksimum 12 ay icra müddətinə malik olur.

## *Kimlər müraciət edə bilər?*

Nəzərə almaq lazımdır ki, Fond ölkələrdən (səfər edilən və SPT hesabatının nəşrinə razılıq verən) və onların MPM-lərindən alınan müraciətləri prioritetləşdirir.

Lakin müraciətlər aşağıdakılar tərəfindən də təqdim oluna bilər:

- Paris Prinsiplərinə cavab verən Milli İnsan Hüquqları Təsisatları; və
- Təklif edilən layihələr uyğun ölkələr və/və ya onların MPM-ləri tərəfindən həyata keçirildikdə, xüsusilə qeyri-hökumət təşkilatları (QHT-lər).

## Müraciət üçün tələblər:

- Yalnız aidiyyəti ölkənin nəşrinə razılıq verdiyi “ölkələrə səfərlər üzrə hesabatda” təqdim edilən SPT tövsiyələrinin həyata keçirilməsi məqsədini daşıyan müraciətlərə baxılır;
- Bütün layihə müraciətləri hər il müəyyən edilən prioritet mövzuların ən azı birinə cavab verməlidir;
- Layihə müəyyən məqsədlərə nail olmalı və gözlənilən nəticələri məhdud vaxt çərçivəsində əldə etməlidir;
- Layihə əsas prinsipləri əks etdirməlidir: insan hüquqlarına əsaslanan yanaşma, digər maraqlı tərəflər ilə tərəfdaşlıq, təkrar müraciət ehtimalını nəzərə alan layihə dizaynı, və dayanıqlıq;

- Hər müraciətçi tərəfindən yalnız bir müraciət qəbul olunur;
- Yalnız uyğun birbaşa xərclər nəzərə alınır;
- Fond layihələrin müxtəlif mənbələr hesabına maliyyələşdirilməsini təqdir edir;
- Müraciətçilər müraciətləri dəstəkləmək məqsədilə Tövsiyə Məktubu da təqdim edə bilərlər;
- Fond tərəfindən maliyyələşdiriləcək işçilərin tərcümeyi-halları və texniki tapşırıqlar da müraciətə əlavə olunmalıdır; və
- Yalnız əvvəlki qrant razılaşmaları icra edildikdən və məqbul səviyyədə tamamlandıqdan sonra yeni qrantlar təsdiq oluna bilər.

## *Necə müraciət etməli?*

- müraciətlərin edilməsi üçün dəvət, adətən, ilin ikinci yarısında edilir;
- Müraciət və Büdcə Formalarını aşağıdakı saytdan əldə etmək mümkündür:

www2.ohchr.org/english/bodies/cat/opcat/Special Fund.htm; və

- Müraciətlər İngilis (üstünlük verilir), Fransız və ya ispan dilində təqdim oluna bilər.

Müəyyən edilmiş tarixə qədər aşağıdakı ünvana göndərilməlidir:

- E-poçt: opcatfund@ohchr.org;
- Faks: +41 (0) 22 917 90 08; və ya
- "İşgəncələrin qarşısının alınması üzrə Alt-Komitə - İşgəncələrə qarşı Konvensiyanın Könüllü Protokolunun Xüsusi Fondu / Katiblik – İnsan Hüquqları Razılaşmaları Sektoru (HRTD)" yazısı qeyd edilməklə Bizimlə əlaqə bölməsində göstərilən ünvana poçt vasitəsilə göndərilməlidir.

Əlavə məlumat və suallar üçün, e-poçt: opcatfund@ohchr.org.

Fond barədə əlavə məlumat üçün:

www2.ohchr.org/english/bodies/cat/opcat/SpecialFund.htm

## 5. İcmalara Birgə Yardım layihəsi

### *Bu nədir?*

1998-ci ildən etibarən BMT İHAK və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) İcmalara Birgə Yardım (ACT) layihəsini birlikdə həyata keçirir.

Layihə çərçivəsində yerli icmalarda insan hüquqları barədə maarifləndirmə tədbirləri həyata keçirən vətəndaş cəmiyyəti üzvlərinə kiçik həcmli qrantlar verilir. ACT layihəsi, əsas etibarilə, insan hüquqları barədə maarifləndirmə, təlim və ictimaiyyətin məlumatlandırılması istiqamətində yerli potensialın gücləndirilməsi məqsədini daşıyır. Təcrübə həmçinin, layihənin beynəlxalq və yerli səviyyələr arasında olan boşluqların aradan qaldırılmasına, eləcə də vətəndaş cəmiyyəti ilə yerli və milli icra orqanları arasında münasibətlərin yaxşılaşdırılmasına töhfə verdiyini göstərir.

### *O necə işləyir?*

ACT layihəsinə ümumi rəhbərlik Cenevrə şəhərində yerləşən BMT İHAK tərəfindən həyata keçirilir.

Hər bir mərhələ üçün (yəni, qrant dövrü) BMT İHAK və UNDP birlikdə qrantların ayrılacağı iştirakçı ölkələrin siyahısını və insan hüquqları barədə maarifləndirmə sahəsində dəstəklənəcək layihələrin prioritet mövzularını müəyyən edir. Hər bir iştirakçı ölkədə UNDP və BMT İHAK əməkdaşlarından, eləcə də Birləşmiş Millətlər Təşkilatının digər orqanlarının nümayəndələrindən ibarət yerli işçi qrupu təklif üçün dəvət prosesi təşkil edir, müraciət formalarını yayır və maliyyələşdiriləcək fəaliyyətləri seçir. Sözügedən işçi qrupu seçilmiş qrant müraciətçilərinin məlumatlandırılmasını və tədbirlərin icrasının monitorinqini həyata keçirir. Qrant alan şəxs UNDP ölkə nümayəndəliyi və ya BMT İHAK (maliyyələşdirən təşkilatdan asılı olaraq) ilə qrant razılaşması imzalayır. Hazırda hər bir layihə üzrə ayrılacaq qrantın maksimum həcmi 7 000 ABŞ dolları səviyyəsində müəyyən edilmişdir. Lakin bu məbləğ hər bir mərhələdən asılı olaraq dəyişə bilər. Digər mənbələr üzrə vəsaitlər mövcud olduğu təqdirdə müraciət edən təşkilat üçün ümumi layihə büdcəsi yüksək ola bilər.

### *Kimlər müraciət edə bilər?*

İştirakçı ölkələrin və ərazilərin aşağıdakı qurumları müraciət təqdim edə bilər:

- Qeyri-hökumət təşkilatları;
- Yerli assosiasiyalar;

- Akademik institutlar və peşəkar qruplar; və
- Yerli icmalarda insan hüquqları ilə bağlı maarifləndirmə işləri həyata keçirən digər vətəndaş cəmiyyəti təsisatları.

## Müraciət üçün tələblər:

- Təklif edilən layihələr, innovativ, təkrar oluna bilən xarakterə və yerli səviyyədə maksimum dayanıqlı təsirə malik olmalıdır;
- Layihələr altı aydan çox olmayan müddət çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirləri əhatə etməlidir;
- Layihə üçün müraciətlər İngilis, Fransız və ya İspan dilində qəbul olunur; və
- Əvvəlki dövrdə maliyyələşdirilən layihələr üzrə gecikmiş hesabatlara malik olmayan keçmiş ACT qrant benefisiarları da müraciət edə bilər.

## *Necə müraciət etməli?*

- Hər bir mərhələ fərqli prioritet mövzulara və iştirakçı ölkələrə malikdir və müvafiq siyahı ACT layihəsinin internet saytında yerləşdirilir;
- Müraciətlər üçün son müddətlər yerli səviyyədə müəyyən edilir və ölkə üzrə xüsusi müraciət üçün dəvət çağırışında qeyd olunur;
- Hər bir iştirakçı ölkədə olan BMT İHAK və UNDP yerli nümayəndəliyi müraciət formalarını və müraciət etməyin yollarını, doldurulmuş formaların qəbulunu və ölkə üzrə qrant qaliblərinin seçilməsi prosessualını tənzimləyən təlimatları təqdim edir;
- BMT İHAK təşkilatının Cenevrə şəhərində yerləşən baş ofisi müraciətləri birbaşa olaraq qəbul etmir.

Məlumat və suallar üçün, e-poçt: actproject@ohchr.org.

ACT layihəsi barədə ətraflı məlumat üçün:

www2.ohchr.org/english/issues/education/training/act.htm

## 6. Birləşmiş Millətlər Təşkilatının Demokratiya Fondu

*Bu nədir?*

Birləşmiş Millətlər Təşkilatının demokratiya Fondu (UNDEF) BMT Katibliyinin tərkib hissəsi kimi 2005-ci ildə yaradılmışdır və BMT-nin Nyu-York şəhərində yerləşən iqamətgahında fəaliyyət göstərir.

BMT İHAK Fondun Proqram üzrə Məşvərət Qrupunda iştirak edir.

Fond vətəndaş cəmiyyəti üzvlərinin səslərini ucaldan, insan hüquqlarını təşviq edən və bütün qrupların demokratik proseslərdə iştirakını təbliğ edən layihələri dəstəkləyir. UNDEF vəsaitlərinin böyük əksəriyyəti demokratiyanın həm keçid, həm də möhkəmləndirilməsi mərhələsində olan ölkələrin yerli vətəndaş cəmiyyəti təşkilatlarına, o cümlədən insan hüquqları təsisatlarına yönəldirilir. Bu yolla, UNDEF dünyanın müxtəlif bölgələrində demokratik idarəetmənin gücləndirilməsi istiqamətində hökumətlər ilə əməkdaşlıq baxımından BMT-nin daha ənənəvi fəaliyyətinin tamamlanmasında özünəməxsus və xüsusi rol oynayır. UNDEF demokratik təsisatları yaradan və onların fəaliyyətini gücləndirən, insan hüquqlarını təşviq edən və bütün qrupların demokratik proseslərdə iştirakını təbliğ edən layihələri maliyyələşdirir. Uyğun fəaliyyət istiqamətləri sırasına aşağıdakılar daxildir:

- Demokratik dialoq və konstitusiya proseslərinə dəstək;
- Vətəndaş cəmiyyətinin səlahiyyətinin artırılması;
- Sivil maarifləndirmə, seçici qeydiyyatının və siyasi partiyaların gücləndirilməsi;
- Vətəndaşların informasiya əldə etmək imkanı;
- İnsan hüquqları və fundamental azadlıqların; və
- Məsuliyyət, şəffaflıq və vəhdət.

*Bu necə işləyir?*

Müraciətlər çox ciddi və rəqabət mühitli seçim prosesindən keçir.

Məşvərət Şurası siyasi təlimatlar təqdim edir, Baş Katib tərəfindən təsdiq edilməsi üçün maliyyələşmə təklifləri tövsiyə edir və üzv ölkələrdən, beynəlxalq QHT-lərin nümayəndələrindən və Baş Katibin şəxsi nümayəndəsindən ibarət olur. UNDEF tərəfindən maliyyələşməsi üçün ilkin olaraq təsdiq edilən təkliflər sonrakı prosesdə tam layihə sənədləri formasına salınmalı və qrantın ayrılması üçün yekun təsdiq cavabının verilməsindən əvvəl təfərrüatlı yoxlamadan keçməlidir. Qrantlar prinsip etibarilə hə bir layihə üzrə 500 000 ABŞ dollarını keçmir və bir qayda olaraq minimum 50 000 ABŞ dolları həcmində olur.

Layihələr altı aylıq müddət üzrə icra olunur və aşağıdakı altı əsas sahələrin birinə və ya bir neçəsinə aid olur:

- Icmanin inkişafı
- Qanunun aliliyi və insan hüquqları
- Demokratiya alətləri
- Qadınlar
- Gənclər
- Kütləvi informasiya vasitələri

Maraqlanan şəxslər qeyd edilən tələblər və proseduralar barədə daha təfərrüatlı məlumat əldə etmək üçün Fondun layihə təklifi üzrə Təlimatları (növbəti mərhələlər üzrə dövri olaraq yenilənir) ilə tanış ola bilərlər. Təlimat UNDEF-in internet saytında yerləşdirilmişdir.

## *Kimlər müraciət edə bilər?*

- Bütün ölkələrdən olan, o cümlədən regional və qlobal təşəbbüsləri təmsil edən müraciətlər qəbul olunur. Lakin demokratiya ilə bağlı vəziyyətin daha kəskin olduğu ölkələrdən, xüsusilə, münaqişələrdən çıxmış, yeni və ya bərpa edilmiş demokratiyaya malik, ən az inkişaf etmiş, aşağı və orta gəlirli ölkələrdən olan müraciətlərə daha çox üstünlük veriləcəkdir;

- UNDEF müxtəlif demokratiya və idarəetmə qurumlarından, o cümlədən milli insan hüquqları təsisatlarından (MİHT-ları) layihə üçün müraciətlər qəbul edə bilsə də, yerli və beynəlxalq QHT-lər, tədqiqat və siyasət təsisatları və peşəkar assosiasiyalar kimi vətəndaş cəmiyyəti təşkilatlarına üstünlük veriləcəkdir.

## *Necə müraciət etməli?*

Təkliflər adətən il ərzində, noyabr ayının ortalarından dekabr ayının sonuna qədər olmaqla altı həftə müddətində təqdim oluna bilir.
Müraciət etməyi planlaşdıran təşkilatlara internet saytının Maliyyələşmə üçün müraciət bölməsinə daxil olmaqla və əvvəlki layihə təkliflərinə nəzər salmaqla müvafiq təlimatlar və öyrənilən dərslər ilə yaxından tanış olmağı tövsiyə edirik.

Müraciətçilər Ingilis və ya Fransız dilində onlayn təklifi doldurmalıdır:

www.un.org/democracyfund/Applicants/applicants_index.html

Fond digər vasitələr ilə təqdim olunan (məsələn, elektron poçt, adi poçt, faks və s.) və ya digər dillərdə olan təklifləri qəbul etməyəcəkdir.

Əlavə məlumat və suallar üçün e-poçt: **democracyfund@un.org.**

Fond barədə ətraflı məlumat üçün:

www.un.org/democracyfund/

# BMT İHAK Təqaüd Proqramları

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının (BMT İHAK) təqaüd proqramları seçilmiş şəxslərə beynəlxalq insan hüquqları mexanizmləri və standartları barədə intensiv təlim imkanları yaratmaqla vətəndaş cəmiyyəti üzvlərini dəstəkləyir. Hal-hazırda BMT İHAK insan hüquqları sahəsində potensialın artırılması məqsədilə xüsusi qrup və ya fərdi şəxslərə ünvanlanan yeddi təqaüd proqramına malikdir:

1. Yerli əhali üçün təqaüd proqramı;

2. Yüksək vəzifədə çalışan yerli əhali nümayəndəsi;

3. Azlıqlar üçün təqaüd proqramı;

4. Yüksək vəzifədə çalışan azlıq nümayəndəsi;

5. Afrika əsilli şəxslər üçün təqaüd proqramı;

6. BMT İHAK Humanitar Fondlarının təqaüd proqramı; və

7. Milli İnsan Hüquqları Təsisatlarının əməkdaşları üçün təqaüd proqramı.

## 1. Yerli əhali üçün təqaüd proqramı

### *Bu nədir?*

1997-ci ildə təsis edilmiş Yerli əhali üçün təqaüd proqramı yerli əhali nümayəndələrinin və onların icmalarının BMT və onun xüsusilə yerli əhali ilə əlaqədar insan hüquqları alətləri və mexanizmləri barədə biliklərinin artırılması ilə bu qrup insanların səlahiyyətinin yüksəldilməsi məqsədini daşıyan ekstensiv təlim proqramıdır. Təlim proqramını başa vuran şəxslər təlim zamanı əldə etdikləri bilikləri öz icmaları və təşkilatları daxilində paylaşmaq və bölüşməklə proqramın dayanıqlı təsirini təmin edirlər. Onlar həmçinin, icmaların təşviq edilməsi və hüquqların qorunması məqsədilə beynəlxalq insan hululları mexanizmlərindən necə istifadə etmək lazım olduğunu öyrənirlər.

## *O necə işləyir?*

Proqram dörd dildə təklif olunur: İngilis, Fransız, Rus və İspan. Proqramın hər bir linqvistik komponenti üzrə hər il beş-səkkiz nəfər iştirakçı seçilir. Iştirakçıların seçilməsi zamanı gender və regional təmsilçilik balansı nəzərə alınır.

Hər bir linqvistik komponent fərqli şəkildə təşkil olunur. Hər bir linqvistik proqramın müddəti beş həftədən (İngilis və Fransız) iki (Rus) və üç aya (İspan) qədər dəyişir.

İspan dilində olan proqram İspaniyanın Bilbao şəhərində yerləşən Deusto Universiteti (UD) ilə əməkdaşlıq çərçivəsində təşkil olunur. BMT İHAK-da proqrama başlamazdan əvvəl İspan qrupu iştirakçıları UD-da iki ay müddətinə (May/iyun) xüsusi hazırlıq kursları keçir.

Rus dilində olan proqram Moskva şəhərində yerləşən Rusiya Xalqlar Dostluğu Universiteti (PFUR) ilə birgə hazırlanır. BMT İHAK-da proqrama başlamazdan əvvəl Rus qrupu iştirakçıları PFUR-da iki ay müddətinə (May/iyun) xüsusi hazırlıq kursları keçir.

Proqramın İngilis və Fransız dillərində olan komponentləri BMT İHAK tərəfindən Cenevrə şəhərində beş həftəlik müddət üçün (iyun/iyul) təşkil olunur və keçirilir.

Cenevrə şəhərində BMT İHAK tərəfindən təşkil edilən bir aylıq kurslar eyni zamada bütün dörd linqvistik qrupdan olan təmsilçiləri əhatə edir və sessiyalar sinxron şəkildə tərcümə edilir. Təlim mütəxəssislərin iştirakını təmin etmək məqsədilə adətən, Yerli əhalinin hüquqlarına dair Ekspert Mexanizmi (EMRİP) sessiyası ilə eyni vaxtda keçirilir.

Proqram həm nəzəri, həm də praktik təlimləri əhatə etməklə müxtəlif mövzular üzrə interaktiv mühazirələrdən, insan hüquqları qurumlarının sessiyalarının müşahidə edilməsindən, eləcə də fərdi və qrup çalışmasından ibarət olur. Cenevrə şəhərində təşkil olunan təlim proqramı BƏT, UNESCO, WIPO və UNICEF kimi BMT-nin müxtəlif qurumlarının və ya ixtisaslaşmış təşkilatlarının proqramları və fəaliyyətləri, eləcə də Cenevrə şəhərində fəaliyyət göstərən insan hüquqları ilə bağlı QHT-lərin sessiyaları barədə məlumat təqdim edir.

Proqram təlim proqramı müddətində mehmanxana və digər yaşayış xərclərini, eləcə də Cenevrə şəhərinə gediş –gəliş biletlərini və əsas tibbi sığorta xərclərini qarşılamaq üçün təqaüd təqdim edir.

## *Kimlər müraciət edə bilər?*

Namizədin profili:

- yerli icmanın üzvü olmalı və yerli icma və ya təşkilat tərəfindən dəstəklənməlidir;
- Bir çox yerli əhalinin təhsil almaq üçün sosial-iqtisadi maneələr ilə üzləşdiyini nəzərə alaraq, rəsmi təhsil - proqramda iştirak üçün məhdudiyyət hesab olunmur;
- Öz icmasına/təşkilatına geri qayıtdıqdan sonra digər yerli şəxslərə təlim keçmək istəyi və bacarığı;
- Sponsorluq edilən təşkilatın davamlı institutsional struktura və ya üzvlüyə malik olması məqsədəuyğun hesab olunur; və
- Proqramın həyata keçirildiyi dil üzrə məqbul bilik səviyyəsi (İngilis, Fransız, İspan və ya Rus).

## *Necə müraciət etməli?*

Bütün dörd dildə olan müraciət formalarını BMT İHAK-ın internet saytından əldə etmək olar. Yalnız tam olaraq doldurulan müraciətlərə baxılacaqdır.

Müraciətləri göndərmək üçün:

- Faks: +41 (0) 22 917 90 08; və ya
- "Yerli əhali üçü təqaüd proqramı / Yerli əhali və azlıqlar bölməsi" yazısı göstərilməklə Təlimatın Bizimlə əlaqə bölməsində göstərilən ünvana poçt vasitəsilə göndərmək.

Nəzərə almaq lazımdır ki, elektron poçt vasitəsilə göndərilən müraciətlərə baxılmayacaqdır.

Əlavə məlumat və suallar üçün, elektron poçt: fellowship@ohchr.org.

Təqaüd proqramı barədə məlumat üçün:

www.ohchr.org/EN/Issues/IPeoples/Pages/Fellowship.aspx

## 2. Yüksək vəzifədə çalışan yerli əhali nümayəndəsi

### *Bu nədir?*

Yüksək vəzifədə çalışan yerli əhali nümayəndəsi proqramı 2001-ci ildən etibarən həyata keçilir.

Bu tədbir ixtisaslı yerli əhali nümayəndəsi üçün iş yerində təlim imkanı yaradır. Proqramın məqsədi seçilmiş şəxslərə

BMT İHAK-ın Cenevrə şəhərində yerləşən ofisində Yerli əhali və azlıqlar sektorunda (İPMS) iş təcrübəsi vasitəsilə xüsusilə yerli əhali məsələləri ilə əlaqəli beynəlxalq insan hüquqları sistemləri və mexanizmləri barədə ətraflı məlumat təqdim etməkdir. Praktik bilik və iş təcrübəsi əldə etməklə yanaşı müvafiq şəxslər MT-nin departamentləri və ya qurumları, Cenevrə şəhərində fəaliyyəti göstərən insan hüquqları QHT-ləri və beynəlxalq səviyyədə insan hüquqları və yerli əhali məsələləri ilə məşğul olan digər aparıcı təsisatlar ilə əlaqə yaratmaq imkanı qazanırlar.

### *O necə işləyir?*

Hər il IPMS yüksək vəzifədə çalışmaq üçün bir nəfər yerli əhali nümayəndəsi seçir ki, bu şəxs təqribən üç ay müddətində sektorun proqramlarında və fəaliyyətlərində birbaşa iştirak edir.

Sözügedən şəxsin fəaliyyət istiqamətləri sırasına tədqiqat və

təhlil işlərinin aparılması, əhəmiyyətli sənədlərin, hesabatların və rəsmi çıxışların hazırlanması, sektor tərəfindən təşkil edilən təlim tədbirləri, seminarlar və ya görüşlərin keçirilmişi daxildir. Təcrübə keçmiş şəxs öz ölkəsinə qayıdan zaman geniş həcmdə bilik və bacarıq əldə edə biləcəkdir ki, bununla da milli, regional və beynəlxalq səviyyələrdə yerli əhalinin insan hüquqlarının təşviqi istiqamətində töhfələr verə biləcəkdir.

Seçilmiş namizəd mehmanxanada qalmaq və digər müvafiq yaşayış xərclərini, eləcə də Cenevrə şəhərinə gediş-gəliş biletlərini və əsas tibbi sığorta xərclərini qarşılamaq üçün təqaüd alır.

### *Kimlər müraciət edə bilər?*

Namizədin profili:

- Yerli əhali nümayəndəsi olmalı;
- Xüsusilə hüquq, politologiya, beynəlxalq münasibətlər və insan haqları ilə əlaqəli olan digər ixtisaslar üzrə ali təhsil;

- Yerli əhalinin hüquqları sahəsində ən azı dörd illik iş təcrübəsi;
- İngilis dilində sərbəst danışmaq. İspan, Fransız və ya Rus dilləri daxil olmaqla digər dillər üzrə biliklərə malik şəxslərə üstünlük verilir.

### *Necə müraciət etməli?*

Müraciət üçün dəvət çağırışı ilin sonlarına yaxın BMT İHAK təşkilatının internet saytında yerləşdirilir.

Titul vərəqində “Yüksək vəzifədə çalışan yerli əhali nümayəndəsi” yazısı göstərilməklə müraciətlər aşağıdakı ünvana göndərilə bilər:

- Faks: +41 (0) 22 917 90 08; və ya
- “Yüksək vəzifədə çalışan yerli əhali nümayəndəsi / Yerli əhali və azlıqlar ilə iş sektoru” yazısı göstərilməklə poçt vasitəsilə Təlimatın Bizimlə əlaqə bölməsində təqdim edilən ünvana göndərmək.

Ətraflı məlumat və suallar üçün, elektron poçt: fellowship@ohchr.org.

Proqram barədə ətraflı məlumat üçün:

www.ohchr.org/EN/Issues/IPeoples/Pages/Fellowship.aspx

## 3. Azlıqlar üçün təqaüd proqramı

### *Bu nədir?*

Azlıqlar üçün təqaüd proqramı milli və ya etnik, dini və linqvistik azlıqlara məxsus şəxslərə ümumilikdə beynəlxalq insan hüquqları sistemi və xüsusilə, də azlıqların hüquqları ilə bağlı sahə üzrə biliklər əldə etmək imkanı yaratmaq məqsədilə 2005-ci ildə təsis edilmişdir. Bu illik proqram azlıqlara məxsus şəxslərə BMT-nin azlıqlar ilə əlaqədar insan hüquqları mexanizmləri barədə biliklər əldə etməkdə yardım edir və onların təqaüd proqramı zamanı əldə etdikləri bilik və məlumatları öz icmaları və təşkilatları daxilində tədris etməsi üçün potensialını artırır.

## *O necə işləyir?*

Hal-hazırda, BMT İHAK İngilis və Ərəb dillərində təqaüd proqramı təklif edir və hər bir dil qrupu üzrə seçilmiş beş şəxsi Cenevrəyə təlimə dəvət edir.

Namizədlərin seçilməsi zamanı gender və regional balans nəzərə alınır. Proqram sessiyalardan, qısa mühazirələrdən və seminarlardan ibarətdir. Proqram beş həftə davam edir və Azlıqlara dair məsələlər üzrə illik forumun keçirildiyi tarixə təsadüf edir. Bəzi sessiyalar zamanı sinxron tərcümə təşkil edilir ki, bu da bütün iştirakçılara eyni zamanda təcrübə və məlumat mübadiləsi aparmağa imkan verir. Proqram seçilmiş namizədin mehmanxanada yaşamaq və digər müvafiq yaşayış xərclərini, eləcə də Cenevrəyə gediş-gəliş biletlərini və əsas tibbi sığorta xərclərini qarşılamaq üçün təqaüd təqdim edir.

## *Kimlər müraciət edə bilər?*

Namizədin profili:

- Milli, etnik, dini və ya linqvistik azlıqlara məxsus olmalıdır;
- Müvafiq təcrübə nümayiş oluna bildiyi təqdirdə rəsmi təhsilin olmaması proqramda iştirakı məhdudlaşdırmır;
- Müvafiq icma və ya təşkilatların yazılı dəstəyi, sponsorluq edilən təşkilatın və ya assosiasiyanın azlıqlar ilə bağlı məsələlər sahəsində fəaliyyət göstərməsi və tərkibində azlıqlara məxsus şəxslərin olması məqsədəuyğun hesab olunur;
- Öz icmalarına/təşkilatlarına geri qayıdan zaman azlıqlara məxsus digər şəxslərə təlim keçmək istəyi və bacarığı; və
- Proqramın həyata keçirildiyi dildə məqbul bilik səviyyəsi (Ərəb və ya İngilis dili).

## *Necə müraciət etməli?*

Müraciət üçün çağırış hər il BMT İHAK təşkilatının Azlıqlar üçün təqaüd proqramı saytında yerləşdirilir və bir ay müddətində açıq olur.

Yalnız tam şəkildə doldurulan müraciətlərə baxılır.

Müəyyən olunmuş müddətlərdə aşağıdakı ünvana göndərmək:

- E-poçt: minorityfellowships@ohchr.org (imzalanmalı, skan olunmalı və vahid sənəd kimi göndərilməlidir, əks təqdirdə sənədə baxılmayacaqdır);
- Faks: +41 (0) 22 917 90 08, "Azlıqlar üçün təqaüd proqramı" yazısı göstərilməklə; və ya
- "Azlıqlar üçün təqaüd proqramı /Yerli əhali və azlıqlar ilə iş sektoru yazısı göstərilməklə təlimatın Bizimlə əlaqə bölməsində qeyd olunan ünvana poçt vasitəsilə göndərmək.

Əlavə məlumat və suallar üçün, e-poçt: minorityfellowships@ohchr.org.

Proqram barədə ətraflı məlumat ucun:

www.ohchr.org/EN/Issues/Minorities/Pages/Fellowship.aspx

## 4. Yüksək vəzifədə çalışan azlıqların nümayəndəsi

### *Bu nədir?*

Üç aylıq Yüksək vəzifədə çalışan azlıqların nümayəndəsi proqramı 2011-ci ildən həyata keçirilir və seçilmiş şəxslərə BMT İHAK-ın Yerli əhali və azlıqlar ilə iş sektorunda iş təcrübəsi (İPMS) vasitəsilə xüsusilə, azlıqlara dair məsələlər üzrə beynəlxalq insan hüquqları sistemi və mexanizmləri barədə hərtərəfli biliklər vermək məqsədini daşıyır.
Seçilmiş namizəd BMT İHAK-ın azlıqların hüquqları məsələsi sahəsində fəaliyyəti ilə bağlı praktik biliklər və təcrübə əldə edir. Müvafiq şəxs həmçinin, İnsan Hüquqları Şurasının, İnsan Hüquqları üzrə Müqavilə Qurumlarının və Universal Dövri İcmal üzrə İşçi Qrupunun sessiyalarında iştirak etmək imkanı əldə edir (proqram müddətində hər hansı sessiya keçirildiyi zaman).

### *O necə işləyir?*

Seçilmiş şəxs praktik tədqiqatlar, təhlillər aparmaqla və /və ya azlıqlar ilə bağı məsələlərə dair hesabatlar hazırlamaqla, eləcə də illik iş planına uyğun olaraq sektorun gündəlik fəaliyyətini dəstəkləməklə, habelə İPMS tərəfindən azlıqların hüquqlarının təşviqinə və müdafiəsinə dair seminar və tədbirlərin təşkilinə yardım etməklə İPMS proqramlarına və tədbirlərinə birbaşa töhfə verir.

Proqram seçilmiş namizədin mehmanxanada qalmaq və digər müvafiq yaşayış xərclərini, eləcə də Cenevrəyə gediş-gəliş biletlərini və əsas tibbi sığorta xərclərini qarşılamaq üçün təqaüd təqdim edir.

## *Kimlər müraciət edə bilər?*

Namizədin profili:

- Milli, etnik, dini və ya linqvistik azlıqlara məxsus olmalıdır;
- İngilis dilində sərbəst danışa bilməlidir. Digər xarici dil, o cümlədən ispan, fransız və ya ərəb dilini bilən şəxslərə üstünlük verilir;
- Xüsusilə hüquq, politologiya, beynəlxalq münasibətlər və insan hüquqları ilə əlaqəli olan digər ixtisaslar üzrə ali təhsil; və
- Azlıqlar ilə iş sahəsində minimum beş illik iş təcrübəsi; tədqiqat və layihələrin hazırlanması sahəsində bacarıqlara malik şəxslərə üstünlük veriləcəkdir.

## *Necə müraciət etməli?*

Müraciət üçün çağırış hər il BMT İHAK-ın Azlıqlar üçün təqaüd proqramı saytında yerləşdirilir və bir ay müddətində açıq olur. Yalnız tam şəkildə doldurulan müraciətlərə baxılır.

Motivasiya məktubu iki tövsiyə məktubu ilə birlikdə aşağıdakı ünvana göndərilməlidir:

- E-poçt: minorityfellowships@ohchr.org (imzalanmalı, skan olunmalı və vahid sənəd kimi göndərilməlidir, əks təqdirdə sənədə baxılmayacaqdır);
- Faks (+41 (0) 22 917 90 08) "Yüksək vəzifədə çalışan azlıqların nümayəndəsi" qeyd olunmaqla; və ya
- "Yüksək vəzifədə çalışan azlıqların nümayəndəsi" Yerli əhali və azlıqlar ilə iş sektoru yazısı göstərilməklə Təlimatın Bizimlə əlaqə bölməsində qeyd olunan ünvana poçt vasitəsilə göndərilməlidir.

Əlavə məlumat və suallar üçün, e-poçt: minorityfellowships@ohchr.org

Proqram barədə ətraflı məlumat üçün:

www.ohchr.org/EN/Issues/Minorities/Pages/Fellowship.aspx

## 5. Afrika əsilli şəxslər üçün təqaüd proqramı

### *Bu nədir?*

Afrika əsilli şəxslər üçün təqaüd proqramı 2011-ci ildə Afrika əsilli şəxslərin Beynəlxalq İli çərçivəsində təsis edilmişdir.

Proqram iştirakçılara Afrika əsilli şəxslər ilə bağlı məsələlərə xüsusi diqqət yetirməklə BMT-nin insan hüquqları sistemləri, alətləri və mexanizmləri barədə geniş biliklər təqdim edir. Proqram həmçinin, iştirakçılara öz ölkələrində Afrika əsilli insanların vətəndaş, siyasi, sosial və mədəni hüquqlarını təşviq və müdafiə etmək baxımından müvafiq biliklər verir.

### *O necə işləyir?*

Proqram sessiyalardan, mühazirələrdən və seminarlardan ibarətdir və təqribən dörd həftə davam edir. Proqram adətən, BMT-nin Afrika əsilli insanlar üzrə ekspertlərinin İşçi Qrupunun sessiyasının keçirildiyi dövrə təsadüf edir ki, burada məqsəd iştirakçılar üçün sözügedən işçi qrupunun iclaslarında iştirak etmək, onları müşahidə etmək və qrupun mandat və fəaliyyətini daha yaxşı dərk etmək fürsəti yaratmaqdan ibarədir. Proqram İngilis dilində keçirilir. Iştirakçıların seçilməsi zamanı gender və regional balans nəzərə alınır. Proqram seçilmiş namizədin mehmanxanada yaşamaq və digər müvafiq yaşayış xərclərini, eləcə də Cenevrəyə gediş-gəliş biletlərini və əsas tibbi sığorta xərclərini qarşılamaq üçün təqaüd təqdim edir.

### *Kimlər müraciət edə bilər?*

Namizədin profili:

- Diasporda yaşayın Afrika əsilli şəxs;
- Afrika əsilli şəxslərin insan hüquqları sahəsində ən azı dörd illik iş təcrübəsi;
- İngilis dilində sərbəst danışmaq; və
- Afrika əsilli şəxslər və ya azlıqların hüquqları sahəsində fəaliyyət göstərən təşkilat tərəfindən namizədliyi irəli sürülmək.

## *Necə müraciət etməli?*

- BMT İHAK internet saytında əldə edilən, müvafiq qaydada doldurulan, namizəd və namizədliyi irəli sürən təşkilatın imzası ilə təsdiqlənən müraciət forması;
- Tərcümeyi-hal;
- Namizədin öz müraciətini əsaslandırdığı və əldə edəcəyi bilik və bacarıqların Afrika əsilli şəxslərin insan hüquqlarının təşviqi və müdafiəsi məqsədilə necə istifadə edəcəyini təsvir edən fərdi məktub (maksimum 500 sözdən ibarət);
- Namizədi irəli sürən təşkilatın və ya icmanın rəsmi dəstək məktubu; və
- Müraciətçinin pasportunun surəti.

Göndəriləcək ünvan:

- E-poçt: africandescent@ohchr.org (sənədlər vahid elektron məktubla göndərilir); və ya
- Faks: +41 (0) 22 928 90 50.

Əlavə məlumat və suallar üçün e-poçt: africandescent@ohchr.org.

Proqram barədə ətraflı məlumat üçün:

www.ohchr.org/EN/NewsEvents/Pages/IYPADFellowshipProgramme.aspx

# 6. BMT İHAK Humanitar Fondların Təqaüd Proqramı[2]

## *Bu nədir?*

BMT İHAK Humanitar Fondların Təqaüd Proqramının məqsədi quldarlığın müasir formaları və/və ya işgəncələr sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının gənc mütəxəssislərinə BMT-nin insan hüquqları sistemi və BMT İHAK-ın quldarlığın müasir formaları və/və ya işgəncələr sahəsində fəaliyyəti barədə praktik iş təcrübəsi və biliklər əldə etmək imkanı yaratmaqdır.

---

[2] BMT İHAK Humanitar Fondları Birləşmiş Millətlər Təşkilatının İşgəncə Qurbanları üçün Könülü Fondunu və Birləşmiş Millətlər Təşkilatının Quldarlığın Müasir Formalari üzər Könüllü Fondunu əhatə edir.

Proqramın sonunda iştirakçıların öz təşkilatına geri dönəcəyi və onun fəaliyyət potensialını artıracağı gözlənilir.

## *O necə işləyir?*

İştirakçılar Birləşmiş Millətlər Təşkilatının Quldarlığın Müasir Formaları üzrə Könüllü Xüsusi Fondunun və Birləşmiş Millətlər Təşkilatının İşgəncə qurbanları üzrə Könüllü Fondunun fəaliyyətinə aşağıdakılar vasitəsilə yardım edir:

- Layihə təkliflərini təhlil etmək və müraciət edən təşkilatlar ilə əlaqə saxlamaqla;
- Əvvəlki qrantların istifadəsinə dair izahlı, maliyyə və audit hesabatlarını təhlil etməklə; və

  Müəyyən ölkələrdə quldarlığın müasir formaları və işgəncələr ilə bağlı vəziyyətə dair praktik tədqiqat və təhlillər həyata keçirməklə.

Zəruri yaşayış xərclərini qarşılamaq məqsədilə iştirakçılar proqramın həyata keçirildiyi müddətdə BMT İHAK-dan aylıq təqaüd formasında maliyyə yardımı alırlar.

## *Kimlər müraciət edə bilər?*

Namizədin profili:

- Xüsusilə quldarlığın müasir formaları və/ və ya işgəncələr ilə bağlı insan hüquqları məsələləri sahəsində yerli və beynəlxalq səviyyədə zəngin bilik və iş təcrübəsi;
- İnsan hüquqları təşkilatında və ya digər əlaqədar sahədə ən azı iki illik peşəkar iş təcrübəsi;
- Proqram bitdikdən sonra geri qayıdan zaman təcrübə çərçivəsində əldə etdiyi bilik və bacarıqları öz həmkarları ilə bölüşəcəyinə dair öhdəliyin qeyd olunduğu təmsil estdiyi təşkilat tərəfindən dəstəkləyici məktub;
- Birləşmiş Millətlər Təşkilatının sistemi barədə biliklərə malik şəxslərə üstünlük veriləcəkdir; və
- İngilis dilində sərbəst danışmaq, Fransız və ya İspan dilini bilmək

### *Necə müraciət etməli?*

BMT İHAK-ın Humanitar Fondlarının Təqaüd Proqramı barədə yenilənmiş məlumatlar müntəzəm olaraq BMT İHAK-ın internet saytında, Birləşmiş Millətlər Təşkilatının Quldarlığın müasir formaları üzrə könüllü xüsusi Fondu və Birləşmiş Millətlər Təşkilatının İşgəncə qurbanları üzrə könüllü Fondu ilə bağlı bölmədə yerləşdiriləcəkdir.

www.ohchr.org/EN/Issues/Slavery/Pages/Callforapplication-Fellowship.aspx

www.ohchr.org/EN/AboutUs/Pages/FundsAndGrants.aspx

Əlavə məlumat və suallar üçün, e-poçt:

slaveryfund@ohchr.org and/or unvfvt@ohchr.org.

## 7. Milli İnsan Hüquqları Təsisatlarının əməkdaşları üçün təqaüd proqramı

### *Bu nədir?*

BMT İHAK-ın Milli İnsan Hüquqları Təsisatlarının əməkdaşları üçün təqaüd proqramı (NHRİ) 2008-ci ildə yaradılmışdır. Proqramın məqsədi iştirakçılara BMT-nin İnsan hüquqları sistemi və BMT İHAK-ın NHRİ-lər ilə və onlar üçün fəaliyyəti barədə bilik və praktik təcrübələr təmin etməkdən ibarətdir.

### *O necə işləyir?*

Proqram BMT İHAK-ın Milli Təsisatlar və Regional mexanizmlər sektoru tərəfindən Cenevrə şəhərində təşkil olunur.

Proqram maliyyə vəsaitinin mövcud olduğu təqdirdə 6 aylıq müddət üçün dörd nəfərə qədər iştirakçını qəbul edir.

Iştirakçıların seçilməsi zamanı regional balans nəzərə alınır.

İştirakçılar insan hüquqları sistemi və digər aidiyyəti məsələlər barədə dövri məlumatlar əldə edir və layihə çərçivəsində müvafiq tapşırıqları yerinə yetirirlər. Onlar Milli İnsan Hüquqları Təsisatlarının (İCC) Beynəlxalq Əlaqələndirmə Komitəsinə (İCC) təşkilatın Bürosunun və illik iclaslarının hazırlanmasında yardım edir və akkreditasiya İCT alt-komitəsinə dəstək göstərirlər.

Cenevrədə mehmanxanada qalmaq və zəruri yaşayış xərclərini qarşılamaq məqsədilə iştirakçılar proqramın həyata keçirildiyi müddətdə BMT İHAK-dan aylıq təqaüd formasında maliyyə yardımı alırlar.

## *Kimlər müraciət edə bilər?*

Namizədin profili:

- ”A” statusu ilə qeydiyyatdan keçən NHRİ işçisi;
- Yerli səviyyədə və ideal olaraq regional və beynəlxalq səviyyədə NHRİ ilə əlaqəli məsələlər sahəsində iş təcrübəsi;
- Geri qayıdan zaman proqram çərçivəsində əldə edilən bilik və təcrübənin NHRİ-dən olan həmkarlar ilə paylaşmaq öhdəliyi; və
- İngilis və/və ya Fransız dilində sərbəst danışan; BMT-nin digər rəsmi dillərini bilən şəxslərə üstünlük verilir.

## *Necə müraciət etməli?*

BMT İHAK-ın internet saytından əldə edilə bilən müraciət forması ilə yanaşı namizədlər aşağıdakı sənədləri də təqdim etməlidirlər:

- Motivasiya məktubu;
- Tərcümeyi-hal; və
- NHRİ tərəfindən Cenevrəyə gediş və dönüş biletlərinin, tibbi sığortanın təmin ediləcəyi və proqramın həyata keçirildiyi tam müddət boyunca müraciətçinin əmək haqqının ödənilməsinin davam etdiriləcəyi barədə öhdəliyin təsbit olunduğu dəstək məktubu.

Müraciətlər müəyyən olunmuş müddət çərçivəcində “Milli İnsan Hüquqları Təsisatlarının Əməkdaşları üçün Təqaüd proqramı” yazılı titul vərəqi ilə birlikdə aşağıdakı ünvana göndərilməlidir:

- E-poçt: nationalinstitutions@ohchr.org, və ya
- Faks: + 41 (0) 22 928 90 18;
- “Milli İnsan Hüquqları Təsisatlarının Əməkdaşları üçün Təqaüd proqramı / Milli Təsisatlar və Regional Mexanizmlər Sektoru” yazısı göstərilməklə Təlimatın Bizimlə əlaqə bölməsində qeyd olunan ünvana poçt vasitəsilə göndərmək.

Əlavə məlumat və suallar üçün, e-poçt: nationalinstitutions@ohchr.org

Proqram barədə ətraflı məlumat üçün:

www.ohchr.org/EN/AboutUs/Pages/FellowshipNHRIStaff.aspx

# Bizimlə əlaqə

Poçt vasitəsilə göndərilən sənədlər aşağıdakı siyahıda təqdim edilən aidiyyəti Fonda və ya Təqaüd Proqramına ünvanlanmalıdır:

- Birləşmiş Millətlər Təşkilatının İşgəncə qurbanları üçün könüllü fondu
- Birləşmiş Millətlər Təşkilatının Quldarlığın müasir formaları üzrə xüsusi könüllü fondu
- Birləşmiş Millətlər Təşkilatının Yerli əhalilər üzrə könüllü fondu
- İşgəncələrin qarşısının alınması üzrə Alt-Komitə (SPT) - İşgəncələrə qarşı Konvensiyanın könüllü protokolu üzrə xüsusi fond /Katiblik – İnsan hüquqları razılaşmaları sektoru (HRTD)
- Yerli əhali üçün təqaüd proqramı / Yerli əhali və azlıqlar ilə iş sektoru
- Yüksək vəzifədə çalışan yerli əhali nümayəndəsi / Yerli əhali və azlıqlar ilə iş sektoru
- Azlıqlar üçün təqaüd proqramı / Yerli əhali və azlıqlar ilə iş sektoru
- Yüksək vəzifədə çalışan azlıq nümayəndəsi / Yerli əhali və azlıqlar ilə iş sektoru
- BMT İHAK-ın Humanitar Fondlarının təqaüd proqramı
- Milli İnsan Hüquqları Təsisatlarının Əməkdaşları üçün Təqaüd proqramı / Milli Təsisatlar və Regional Mexanizmlər Sektoru

Bütün yuxarıda qeyd edilən təşkilatlar aşağıdakı ünvanda yerləşir:

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı

UNOG-OHCHR - 1211 Cenevrə 10 – İsveçrə

Telefon və faks nömrələri, eləcə də elektron poçt ünvanları təlimatın müvafiq hissəsində təqdim edilmişdir.

BMT İHAK-ın Vətəndaş cəmiyyəti sektoru ilə əlaqə üçün:

civilsociety@ohchr.org

Telefon: +41(0) 22 917 9656

www.ohchr.org/EN/AboutUs/Pages/CivilSociety.aspx

Vətəndaş cəmiyyətinin e-poçt yayım sistemi insan hüquqları ilə əlaqəli bütün mandatlar və mexanizmlər, eləcə də fondlar, qrantlar və təqaüd proqramları üçün müraciətlərə dair informasiya və son müddətlər barədə yeni məlumatlar və təlimatlar təmin edir. Abunə olmaq üçün vətəndaş cəmiyyətinin internet səhifəsinə və ya http://goo.gl/O8snt səhifəsinə daxil olmaq olar.

**Vətəndaş cəmiyyəti üçün Praktiki Təlimat**
**İNSAN HÜQUQLARI İLƏ ƏLAQƏLİ FONDLAR, QRANTLAR VƏ TƏQAÜD PROQRAMLARI**

**İnsan Hüquqları üzrə Ali Komissarlıq**
Palais des Nations
CH 1211 Cenevrə 10 – İsveçrə
Telefon : +41 (0)22 917 90 00
Faks : +41 (0)22 917 90 08
www.ohchr.org

United Nations

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF THE HIGH COMMISSIONER